# SƏMƏDOV PƏRVİZ ƏBDÜLƏHƏD OĞLU



5 may 1970-ci ildə Gəncə şəhərində anadan olmuşdur. 1985-ci ildə səkkizinci sinfi bitirərək, təhsilini 15 saylı texniki peşə məktəbində davam etdirmiş və avtomobil çilingəri peşəsinə yiyələnmişdir. 1988-ci ildə ordu sıralarına çağırılaraq iki il Çita şəhərində xidmət etmiş və 1990-cı ildə doğma yurdu Gəncəyə qayıtmışdır. 1992-ci ildə könüllü olaraq Ağdam bölgəsinə gəlmiş və kəşfiyyat bölüyünün komandiri kimi fəaliyyətə başlamışdır. P.Səmədov Şelli, Naxçıvanik, Aranzəmin Pircamal kəndləri uğrunda gedən döyüşlərdə misilsiz xidməti olmuşdur. 1992-ci il mayın 15-də Ağdamın Gülablı kəndində gedən qanlı döyüşlərdə qəhrəmanlıq nümayiş etdirərək, döyüş yoldaşlarına yardım etmiş və özü qəhrəmancasına həlak olmuşdur. Gəncə şəhərində dəfn edilmişdir. Ailəli idi. Bir oğlu var. Azərbaycan Respublikası Prezidentinin 7 iyun 1992-ci il tarixli 833 saylı Fərmanı ilə Səmədov Pərviz Əbdüləhəd oğlu ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür. Gəncə şəhərində adına küçə var.